Azad Azərbaycan

04 may 2021-ci il №30 (3685)

TARİXİMİZ

# Əbədiyyətə qovuşan ömür: Şəhidlik zirvəsi hər kəsə qismət olmur!

**Həyat nə qədər şirin olsa da, ölüm heç bir insan övladının qaça bilməyəcəyi tale yazısıdır. Amma Allah qatında seçilmiş elə insanlar var ki, onlar ölmür, cismən bu dünyanı tərk edib, ruhən Yaradana - əbədiyyətə qovuşurlar. Ölümlərin ən şərəflisi də deyirlər buna. Bu, müqəddəs şəhidlik zirvəsidir ki, hər kəsə qismət olmaz. Ancaq bu zirvəyə çatanlarımız da var...**

## Şəhid mayor Azər Mikayılov

Mayor Azər Əmrah oğlu Mikayılov 01.08.1980-ci ildə Kəlbəcərin Quzeyçikin kəndində doğulub. 1997-ci ildə



Naftalan şəhəri 33 saylı tam orta məktəbi bitirdikdən sonra 1998-2002-ci illərdə Ali Hərbi məktəbdə təhsil alıb. 2002-2003-cü illərdə Silahlı Qüvvələrin təlim-tədris mərkəzində təhsilini davam etdirib.

2003-cü ildən Naxçıvanda Silahlı Qüvvələrin Quru Qoşunlarında tağım komandiri kimi xidmətə başlayıb. Xidmət dövründə müxtəlif vəzifələrdə çalışan A.Mikayılov son fəaliyyəti zamanı Xüsusi Təyinatlı Hərbi hissənin qərargah rəisi və hərbi hissə komandiri vəzifələrini icra edib. O, Vətən müharibəsi başlayandan oktyabrın 11-dək hərbi hissə komandiri kimi Cəbrayıl-Hadrut istiqamətindəki döyüşlərə birbaşa rəhbərlik edib.

**Rəhbərlik etdiyi hərbi qüvvələr onlarla yaşayış məntəqəsinin azad olunmasında, yüzlərlə düşmənin öldürülməsində iştirak edib. 11 oktyabrda Cəbrayıl-Hadrud istiqamətində baş verən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olan komandir oğlunun doğum günündə - 12 oktyabrda torpağa tapşırılıb.**

Ailəli olan şəhidimizin 2 övladı var. Son dəfə oktyabrın 7-də atası Əmrah kişilə telefon əlaqəsi saxlayan Azər düşmən qüvvələrini məhv etdiklərini, qısa zamanda Qarabağı işğalçılardan azad edəcəklərini deyib, ona görə narahat olmamağı tapşırıb.

Hərbi xidmət zamanı iştirak etdiyi hərbi əməliyyatlarda göstərdiyi qəhrəmanlıqlara və nümunəvi xidmətinə görə ona müxtəlif dövrlərdə təqdim olunan III dərəcəli "Qüsursuz xidmətə görə" medalı, II dərəcəli "Qüsursuz xidmətə görə" medalı, I dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı igid komandirin böyük rəşadətinin bariz nümunəsidir.

## Şəhid kapitan Samid Əsgərov

Əsgərov Samid Gülmalı oğlu 12.10.1989-cu ildə Neftçalada anadan olub. Quru qoşunlarında kapitan rütbəsini daşıyırdı. 2015-ci il yanvarın 17-si Nübar xanımla ailə həyatı qurub. Bu nigahdan 2018-ci ildə Kənan adında oğlu dünyaya gəlib. Müharibə başlayandan döyüşlərə qatılıb. Oktyabrın 3-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olub.

**Şəhidin atası deyir ki, Samid ona təkcə oğul yox, dost, sirdaş olmuşdu:** "Həmişə onunla fəxr etmişəm. Həmin gün balıq tutmağa getmişdi. Gəldi, dedikı, ata, zəng



gəlib getməliyəm. Kənanı gətirmə, bilməsin getməyimi. Ayın 1-i heç kəsə arzu etmirəm o gecəni - xəbəri gəldi oğlumun. Səhəri gün özüm gedib gətirdim öz əllərimlə".

**Anası Samidin uşaqlıqdan vətənpərvər olduğunu deyir:** "Samid hər zaman ailəsinə, vətəninə layiqli övlad olub. Şəhidlik haqqında heç nə deməz, danışmazdı. Həmişə "Vətənə olan borcunu ödəmək hər kəsin vəzifəsidir" - deyərdi. İşi, harda olması haqda bizə məlumat verməmişdi. Elə "buralardayam" - deyərdi. Müharibə başlayanda məzuniyyətdə idi. Amma evdə də zəng edirdi tez-tez ki, "nəsə problem varsa, lazımamsa gəlim". Halbuki bir aylıq təlimdən yenicə gəlmişdi. İki gün sonra Samidi çağırdılar. Həmin gün balasından gizli yola saldım. Məni, atasını öpdü və getdi. Üç gün cəmi əlaqəmiz oldu. Deyirdi: "Heç narahat olmayın. Hər şey yaxşıdır. Mən arxadayam". Həmin gecə yuxuda gördüm, dedi ki, ana, mən yaralanmışam. Ondan sonra xəbər olmadı. İki gün sonra şəhid xəbəri gəldi".

## Şəhid əsgər Cavid Cabarzadə

Cabarzadə Cavid Qorxmaz oğlu 10.08.1997-ci ildə Suraxanı rayonu Bülbülə qəsəbəsində anadan olub. 2004-2008-ci illərdə Qubadlı rayon Qaralar kənd orta məktəbində, 2008-2014-cü illərdə isə Bakı şəhəri 316 saylı orta məktəbdə təhsil alıb. Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası nəzdində atıcılıq mərkəzində idmanın oxatma növüylə məşğul olub. Bir çox yarışlarda iştirak edib, yüksək nailiyyətlər qazanıb. 2015-ci ilin oktyabrında hərbi xidmətə yollanıb. Atıcılıq üzrə fəallığı nəzərə alınaraq snayper-kəşfiyyatçı kimi qulluq edib.



**Cavid 2016-cı ildə Aprel döyüşlərində Şükür Həmidovun batalyonunda döyüşüb.**

Vətən müharibəsində Milli orduya könüllü yazılan Cavid çağırış əsasında sentyabrın 29-da təlimlərə qatılıb. Zəngilan, Cəbrayıl, Füzuli, Laçın uğrunda gedən döyüşlərdə ön cəbhədə olub, bir sıra kəndlərin və yaşayış məntəqələrinin alınmasında iştirak edib. O, peşəkar snayper olduğundan düşmən mövqelərini dəqiq atəşlə hərbi texnika, canlı qüvvə sarıdan böyük itkilərə məruz qoyub. Cavid oktyabrın 24-də Laçın dəhlizi yaxınlığında qızğın döyüşlərdə ayağından ağır yaralanıb, qan itkisindən dünyasını dəyişərək şəhidlik zirvəsinə ucalıb. Məzarı II Fəxri Xiyabandadır.

## Şəhid əsgər Əliheydər Hüseynli

Hüseynli Əliheydər Səlaheddin oğlu 14.04.1994-cü il-



də Ağstafanın Qırılı kəndində doğulub. 2011-2015-ci illərdə Azərbaycan Texniki Universitetində İnformasiya Texnologiyaları və Sistemləri mühəndisliyi üzrə təhsil alıb.

**2015-2016-cı illərdə Bakıda Həqiqi hərbi xidmətdə olub.**

2017-ci ildə Azərişıq ASC-də Nərimanov rayonu üzrə Nəzarətçi Mühəndis vəzifəsində çalışmağa başlayıb. 2020-ci ilin 15 sentyabrında vəzifəsi üzrə Ağstafaya ezam olunub.

**Nişanlı olan və evliliyə hazırlaşan Əliheydər anası ilə Qırılı kəndində yaşayırdı. Vətən müharibəsinə günlər qalmış - 21 sentyabrda ordu sıralarına qatılıb. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Dəfələrlə yaralı silahdaşlarını ölümün pəncəsindən xilas edib təhlükəsiz əraziyə yerləşdirdikdən sonra yenidən döyüşə atılıb.**

Əliheydər ən son anasına noyabrın 8-i səhər saat 11 radələrində Xocavənddən zəng edir, zəfərlərini, sürətlə irəlilədiklərini, torpaqları azad etdiklərini sevincək bölüşür. Sonda isə "Allaha əmanət olun, biz irəli gedirik" - deyir. Bu, son sözü, son döyüşü olur. 11 gün heç bir xəbər alınmır. Yalnız 19 noyabrda məlum olur ki, noyabrın 9-da böyük qələbəyə 4 saat qalmış Xocavənd uğrundakı döyüşlərdə bədəninin 3 yerindən aldığı ağır qəlpə yaraları nəticəsində şəhadətə yüksəlib. 21 noyabrda doğma kəndində torpağa tapşırılıb.

## Şəhid əsgər Ceyhun Nüsrətli

Nüsrətli Ceyhun Aqil oğlu 1995-ci il aprelin 8-də Bakıda anadan olub. İxtisasca kimya müəllimi olan Ceyhun Bakıda anası və qardaşı ilə birgə yaşayırdı.

2019-cu ilin oktyabr çağırışında həqiqi hərbi xidmətə



yollanıb, manqa komandiri kimi vəzifəsini icra edib. Müharibə başlananda onun evə dönməsinə cəmi 4 gün qalmışdı. Buna baxmayaraq, o da döyüş yoldaşlarıyla birgə müharibəyə qatılıb, ön xəttə xidmət edib. Ağdərə istiqamətində gedən döyüşlərdə şücaətiylə fərqlənən Ceyhun son dəfə ailəsiylə sentyabrın 28-də danışıb və "narahat olmayın, döyüşdəyik, torpaqlarımızı azad edəcəyik" - deyib.

**Oktyabrın 1-i hərbi xidməti bitirməli olan əsgər ondan bir gün qabaq sentyabrın 29-u qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.**